# Fransanın müstəmləkə siyasətini ifşa edən platforma

## Bakı Təşəbbüs Qrupu əsarətdəki xalqların səsini dünyaya çatdıran beynəlxalq tribunadır

**"Bandunq Konfransından 70 ilə yaxın dövrün keçməsinə rəğmən kolonializmi hələ də davam etdirən ölkələr var. Belə ölkələrdən biri və birincisi Fransadır".**

Ötən il Bakıda keçirilən "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" mövzusunda beynəlxalq konfransın iştirakçılarına ünvanladığı məktubunda Prezident İlham Əliyevin də bəyan etdiyi kimi, özünü dünyanın "demokratik" ölkəsi sayan Fransa minlərlə kilometr uzaqda yerləşən əraziləri qəsb edərək, sərvətlərini talayaraq, insanlarından kölə kimi istifadə edərək bu gün də müstəmləkəçilik siyasətini davam etdirir. Paris kanak xalqının timsalında yerli sakinlərin azadlıq istəyini qanla boğmağa çalışaraq, beynəlxalq hüquqazidd siyasətindən qətiyyən əl çəkmək fikrində olmadığını açıq şəkildə ortaya qoyur.

### Fransanın rəzil siması

Qarabağı könüllü tərk edən bir ovuc erməniyə görə özünü oda-közə vuran, ölkəmizə qarşı qarayaxma kampaniyası aparan Fransa Sakit və Atlantik okeanlarında dənizaşırı ərazilərdə yaşayan xalqları müstəmləkəsi altında saxlamağı, yerli sakinlərin hüquqlarını pozmağı, onların azadlıq istəyini qanla yatırmağı "qanuni" haqqı sayır.

Müstəmləkə altında olan və müstəqillik arzusunda olan ölkələrdən biri Fransız Polineziyasıdır. Onun təbii sərvətlərini talan edən Fransa yerli xalqın azadlıq istəyinə məhəl qoymur.

Qvadelupa əhalisi də dörd əsrdir ki, Fransanın əsarəti altında yaşayır. Ölkədə müstəqillik tərəfdarı olanlar Fransa tərəfindən öldürülür və onların sayı əhaliyə açıqlanmır.

Martinikanın təbii sərvətləri talan olunaraq 90 faizi Fransaya və digər ölkələrə aparılır, Fransız Qvianası müstəmləkəçilik siyasəti nəticəsində maliyyə və iqtisadi cəhətdən asılı vəziyyətə salınıb, qızıl mədənləri talan edilir, qızılı çıxararaq Fransaya daşınır. İllər boyu Korsikanı müstəmləkə altında saxlayaraq burada cinayətlər törədən Fransa müstəqillik istəyənləri həbs edib, ya da öldürüb. Avropanın "demokratiya beşiyi" ölkəsinin əsarətində boğulan korsikalılar bütün beynəlxalq təşkilatlardan Korsikanın suverenliyinin təmin olunması üçün kömək istəyirlər.

Fransa Qəmər Adaları İttifaqının Mayot adası üzərində suverenliyini tanımaqdan imtina edir.

Yeni Kaledoniyada əhalinin yarısının iştirakı olmadan referendum keçirilir və bu minvalla Yeni Kaledoniya xalqının müstəqil olmaq hüququ əlindən alınır.

### Müstəmləkəçiliyin kökü kəsilənədək...

Fransanın kolonializm siyasətini davam etdirməsini, müstəmləkəsi altında saxladığı xalqların fundamental hüquqlarını pozmasını, müstəqillik tələbi ilə ayağa qalxanları həbs etməsini, öldürməsini Azərbaycan bütün beynəlxalq platformalarda ifşa edir. Ölkəmiz Qoşulmama Hərəkatının Bandunq prinsiplərinə uyğun olaraq aktiv formada neokolonializmə qarşı mübarizə aparır, azad olmağa çalışan xalqları dəstəkləyir, neokolonializmlə mübarizə mövzusunu müxtəlif platformalar vasitəsilə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırır.

Qeyd edək ki, Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər toplantısı çərçivəsində 2023-cü il iyulun 6-da Bakıda "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılmasına doğru" adlı konfransın iştirakçıları tərəfindən Bakı Təşəbbüs Qrupu (BTQ) yaradılıb. BTQ XXI əsrdə hələ də müstəmləkəçilikdən əziyyət çəkən dünyanın müxtəlif bölgələrində yerləşən xalqların azadlıq uğrunda apardıqları mübarizəyə dəstək verir.

Bununla əlaqədar, BTQ ötən il sentyabrın 22-də ABŞ-nin Nyu York şəhərində yerləşən BMT-nin mənzil qərargahında "Dekolonizasiya: Sakit İnqilab" adlı konfrans keçirib. Tədbirdə müstəqillik və millətçi hərəkatlarının nümayəndələri Fransa müstəmləkəçiliyindən tam azad olunanadək və müstəmləkəçiliyin kökünün kəsilməsinədək mübarizələrini davam etdirəcəklərini bəyan ediblər.

Xüsusi qeyd edək ki, ölkəmiz öz gücünə torpaqlarını işğaldan azad etməsi, Qarabağda separatizmin kökünü kəsməsi ilə müstəmləkədən qurtulmaq istəyən xalqların ümid, inam yerlərinə çevrilib. Buna görə də onlar Bakı Təşəbbüs Qrupu vasitəsilə səslərini dünyaya çatdırırlar.



### Fransanın vəhşiliyi bir daha dünyaya çatdırılacaq

Bu gün isə Bakıda Afrikanın müxtəlif ölkələrindən olan bir qrup jurnalist, tanınmış bloqçu və vətəndaş cəmiyyəti fəalları, eləcə də yeni kaledoniyalı jurnalistlərin iştirakı ilə "Dekolonizasiya, beynəlxalq diplomatiya və müasir dünyada kommunikasiyanın rolu" mövzusunda mətbuat konfransı keçiriləcək.

Fransa təhlükəsizlik qüvvələrinin Yeni Kaledoniyada yerli kanak xalqının dinc etiraz aksiyasına zorakılıqlarla cavab verməsi və bunun nəticəsində 10-dan çox dinc sakinin öldürülməsi, yüzlərlə insanın yaralanması və həbs edilməsi məsələləri beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılacaq. Belə ki, Fransa hökumətinin qərarı ilə Yeni Kaledoniyaya giriş qapadılıb, qanunsuz komendant saatı hələ də davam edir. Fransa polisi və jandarma qüvvələri tərəfindən törədilən vəhşilikləri dünya ictimaiyyətindən gizlətmək məqsədilə adanın sahibi olan kanakların fundamental hüquqları kobud şəkildə pozularaq ifadə və fikir azadlıqları məhdudlaşdırılıb. İnformasiya blokadasını yarmaq və adada baş verənləri yerli rəsmilərin dilindən eşitmək üçün Bakı Təşəbbüs Qrupu hibrid mətbuat konfransı təşkil edir.

Konfransın məqsədi, həmçinin Yeni Kaledoniyada və Fransanın digər müstəmləkələrində geniş vüsət alan insan hüquq pozuntularına media vasitəsilə dünya ictimaiyyətinin diqqətini çəkmək, Afrikada hələ də davam edən müstəmləkəçiliyin yeni mərhələsi - neokolonializmlə mübarizə istiqamətində kommunikasiya sahəsində birgə əməkdaşlığın qurulmasının müzakirə edilməsidir.

Göründüyü kimi, Azərbaycan Fransanın neokolonializm siyasətini beynəlxalq ictimaiyyət qarşısında ifşa edir. Bu istiqamətdə mühüm fəaliyyət göstərən Bakı Təşəbbüs Qrupu müstəmləkə zülmü altında inləyən xalqların azadlıq səslərinin dünyaya çatdırılmasında vacib platforma rolunu oynayır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

Azərbaycan. - 2024.-13 iyun, №124.-S.6.